# Süleymanova Zümrüd



**İnsan qanadsızdır, lakin o, öz ağlının gücünə arxalanırsa uça bilər.**

***N. Y. Jukovski***

Yaşadığımız bu dünya böyük, işıqlı və gözəldir. Bu gözəlliyi duymaq, işığını görmək üçün həvəslə yaşayıb - yaratmaq, müxtəlif elmlərə yiyələnmək lazımdır. İnsan ömrü boyu nümunələrlə yaşamalı, gözəl insan, müsbət qəhrəman və başqaları üçün şəxsiyyət nümunəsi olmalıdır. Bunun üçün də gərək elmlə məşğul olasan. İnsan elmlə, zehni və zəkası ilə bu zirvəyə çata bilər. Hər bir uşaq dünyagörüşünə uyğun istiqamət seçir. Əgər elmin zəifdirsə, bu zaman dünyagörüşündə zəif olur və yanlış yollar seçilir. Buna görə də hər bir kəs çox oxumalıdır ki, həyat pillələrini düzgün addımlaya bilsin.

Süleymanova Zümrüd Qamət qızı 27 aprel 2005 - ci ildə dünyaya gəlmişdir. 2012 - ci ildə Göygöl rayon, Firuzabad qəsəbəsinin tam orta məktəbinin 1 - ci sinfinə qəbul olmuşdur. Hal - hazırda isə həmin məktəbin 7 - ci sinif şagirdidir. Onun ən sevdiyi fənlər Azərbaycan dili, Biologiya və Coğrafiya, ən sevdiyi müəllimələri isə Azadə xanım və Fəridə xanımdır. Zümrüd Biologiyaya olan marağından da hiss olunur ki, o tibb sahəsinə çox həvəslidir. Böyüdükdə həkim olaraq xəstə və yaşlı insanlara əlindən gəldiyi qədər yardım etmək istəyir. Süleymanovlar ailəsi 4 nəfərdən ibarətdir. Zümrüd hər zaman böyüklərindən nümunə götürdüyünü deyir. Həmçinin o, boş vaxtlarında musiqi dinləməyi və kitab oxumağı çox sevir.

Ağlı, zəkası ilə gələcəyinə böyük ümidlər və xoş təəssüratlar yaradan qızımıza hər bir işdə uğurlar arzulayırıq!



## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

### DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



### DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

### DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S.Vurğun və S.Rüstəmin, musiqisi Ü.Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli "Azərbaycan marşı" Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

## Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır

Heydər Əlirza oğlu Əliyev



**Zərifə Əziz qızı Əliyeva**
Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**
Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



# Hüseynova Mənsumə



**Gəncliyin yaraşığı güc və gözəllik, qocalığınkı isə ağıldır.**
***Demokrit***

Elm, təhsil insan həyatının ayrılmaz, ən vacib hissəsidir. Bu əzəldən bəri belə olmuşdur. Elm özü ucu - bucağı görünməyən, bitməyən, tükənməyən bir anlamdır. Əgər bir şəxs bundan faydalanmağı bacarırsa o, dünyanın ən bəxtəvər insanıdır. Unutmamalıyıq ki, yüksək zirvələr öz - özlüyündən yaranmır. Bu zirvələrə çatmaq üçün gecə - gündüz çalışmaq, əziyyət çəkmək lazımdır. Qəhrəmanımız Hüseynova Mənsumə Vüqar qızı da öz arzularının, məqsədlərinin zirvəsini fəth etmək arzusundadır. Mənsumə 25 oktyabr 2006 - cı ildə Gəncə şəhərində anadan olmuş, 2012 - ci ildə isə Əhməd Cavad adına tam orta məktəbin 1- ci sinfinə getmişdir. Mənsumə dərslərinə yaxşı hazırlaşır, yüksək qiymətlər alır. Lakin o sadəcə elm də yox başqa sahələrdə də nailiyyətlər əldə etmişdir. Bu sahələrdən biri də, rəqsdir. O, uşaq yaşlarında rəqslə məşğul olmuş, zaman - zaman müsabiqələrdə iştirak etmiş, bir çox tərifnamələr qazanmışdır. Yarışların birində isə digər yoldaşlarının hər birindən yüksək performans göstərərək, səhnəni fəth edib, ən yüksək pilləyə çataraq qalib olmuşdur. Mənsumə boş vaxtlarında kitab oxumağı, mütaliələr etməyi çox sevir. Bununla yanaşı, o, hobbi olaraq müxtəlif vasitələrlə maraqlı əşyalar düzəldir. Ziyalı ailəsində dünyaya göz açan qızımızın özüdə valideynləri kimi savadlı olmaq istəyir. Bunun üçün də əlindən gələn hər şeyi edir. Biz də inanırıq ki, o, əzmkarlığı və iradəsi sayəsində bütün çətinliklərə qalib gələcək və elmdə xariqələr yaradacaq.

# Cahangirov Emil





**Bilik elə qiymətli sərvətdir ki, onu hardan alırsan al, qəbahət deyil.**

***Ə. Fərəc***

"Artıq mən bu kainatda özümü yad hiss etmirəm. Onu daha yaxından tanıdıqca sanki insanoğlunun dünyaya niyə gəldiyini dərk edirəm..." Bu sətirər XX əsrin məşhur filosoflarından olan Alfred Rassel Vallasa məxsusdur. Ancaq onun bu sözlərində ifadə edilən həqiqətlər heç də yeni deyil. Hər bir insan həyata nə üçün gəldiyini dərk etməli və bunun üçün qarşısına məqsəd qoymalıdır. Tarix boyunca mənsub olduğumuz bu torpaqlarımız xalqımıza xeyirli, savadlı, tanınmış şəxsiyyətlər yetişdirib. Hansı ki, həmin şəxsiyyətlər vaxtında yaşayıb yaratmış və indi də tariximizin yaddaşında yaşamaqdadır. Bizim balaca qəhrəmanımız da gələcəkdə belə ağıllı, savadlı və tanınmış şəxsiyyətlərdən biri olacağına əmindir.

Cahangirov Emil Allahverdi oğlu 21 senytabr 2009 - cu ildə Göygöl şəhərində anadan olmuşdur. O, 2014 - cü ildə İbrahim Hüseynov adına məktəbin 1 - ci sinfinə getmişdir. Hal - hazırda 4 - cü sinifdə oxuyur. Emil gününü əsasən dərs oxumaqla keçirir. Lakin onun elmlə yanaşı idmana və incəsənətə də çox böyük marağı vardır. Az yaşı olmasına baxmayaraq, artıq Emil bir neçə film və reklamda rol almışdır. Onun ən böyük arzusu da böyüyüb aktyor olmaqdır. Ailə üzvləri də ona bu fikrində dəstək çıxaraq, hər zaman onun yanında olduqlarını bildirirlər.

Biz də inanırıq ki, onun daha böyük əməllərinin sorağını eşidəcək, uğurlarının şahidi olacağıq. Emilə hər zaman zəfər qazanmağı, xoş soraqlarının eşidilməsini arzulayırıq!



# Zərifə Əziz qızı Əliyeva



**Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.**

1942-ci ildə orta məktəbi bitirdiktən sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə həmin institutu bitirmişdir.

Sonra o, Moskva şəhərində Mərkəzi həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmolgiya üzrə ixtisaslaşdırma kursu keçmişdir.

1950-ci ildə Zərifə xanım Əliyeva aspiranturaya daxil olmuş və 1953-cü ildə buranı bitirmişdir.

1957-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilə qədər böyük elmi işçi, 1967-ci ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilmişdir.

Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Zərifə xanım Əliyeva yüksək ixtisaslı səhiyyə kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologiyi" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

1981-cı ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z.Ə.Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layıq görülmüşdür. Geyd olunmalıdır ki, professor Z.Ə.Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətlərini qiymətləndirərək, 1983-cü ildə Zərifə xanım Əliyevanı Azərbaycan SSR EA-nın akademiki seçdilər.

Zərifə xanım Əliyeva göstərdiyi xidmətlərinə görə orden və medallarla təltif olunmuşdu. Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur.

*İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur.*

*1967-1977-ci illərdə Bakı şəhərində orta məktəbdə oxumuşdur.*

*1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna (MDBƏİ) daxil olmuşdur.*

*MDBƏİ-ni bitirdikdən sonra 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun aspiranturasına daxil olmuşdur.*

*1985-ci ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi dərəcəsi almışdır.*

*1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda müəllim işləmişdir.*

*1991-1994-cü illər ərzində özəl biznes sahəsində çalışmışdır və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.*

*1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olmuşdur. "Heydər Əliyevin neft strategiyası"nın həyata keçirilməsində fəal iştirak etmişdir.*

*Suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur.*

*İki dəfə, 1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə seçilmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam vermişdir.*

*1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin Prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir.*

*1999-cu ildə hakim Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilmişdir.*

*2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur.*

*2003-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir.*

*2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir.*

*2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76%-dən çoxu İlham Əliyevin lehinə səs vermişdir. O, 2003-cü il oktyabrın 31-də vəzifəsinin icrasına başlamışdır.*

*2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına və Avropa ideallarına sədaqətinə görə AŞPA-nın fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilmişdir.*

*2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88,73 % səsini qazanan İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O, 2008-ci il oktyabrın 24-də vəzifəsinin icrasına başlamışdır.*

*Azərbaycan, rus, ingilis, fransız və türk dillərini mükəmməl bilir.*

*Evlidir. Üç övladı, üç nəvəsi var.*

*Prezident Əliyevin təltif olunduğu orden, mükafat və fəxri adlar aşağıdakıları əhatə edir: Heydər Əliyev ordeni (Azərbaycan Respublikası), Beynəlxalq münasibətlər və sülh naminə İhsan Doğramacı mükafatı (Türkiyə), Rumıniya Ulduzu Ordeni (Rumıniya), Kral Əbdüləziz Ordeni (Səudiyyə Ərəbistanı Krallığı), Şərəf Ordeni (Gürcüstan), "Şərəf Legiounun Böyük Xaçı" Ordeni (Fransa), Şeyxülislam Ordeni (Azərbaycan Respublikası), Rusiya Pravoslav Kilsəsinin*



*"Prepodobnıy Serqiy Radonejskiy" birinci dərəcəli Ordeni, "Böyük Kordon" Şərəf Ordeni (Beynəlxalq Hərbi-İdman Şurası), MDB ölkələrin İdman Təşkilatlarının Beynəlxalq Konfederasiyasının "Şərəf Ordeni", FİLA-nın Şərəf Zalının ən yüksək "İdman Əfsanəsi" ordeni, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Xaç ordeni (Polşa), I dərəcəli Knyaz Yaroslav Mudrı ordeni (Ukrayna), "Mübarək əl-Kəbir" ordeni (Küveyt Dövləti), Yunanıstan parlamentinin Qızıl medalı (Yunanıstan), Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanı, "Üç ulduz" ordeninin "Böyük xaç kavaleri" dərəcəsi, "Sadiq Xidmət" milli ordeninin Böyük Xaç ranqı (Rumıniya), "İsmoili Somoni" ordeni (Tacikistan).*

*Linkoln Universitetinin Fəxri Doktoru (ABŞ), Moskva Dövlət Beynəlxalq Münasibətlər Universitetinin Fəxri Doktoru, L.N.Qumilyov – Avrasiya Milli Universitetin Professoru (Qazaxıstan), Bilkənt Universitetinin Fəxri Doktoru (Türkiyə), Vergilər üzrə Milli Akademiyanın Fəxri Doktoru (Ukrayna), Ploesti Neft və Qaz Universitetinin Fəxri Doktoru (Rumıniya), Milli və Dünya İqtisadiyyatı Universitetinin Fəxri Professoru (Bolqarıstan), Kyung Hee Universitetinin Fəxri Doktoru (Cənubi Koreya), İordaniya Universitetinin Fəxri Doktoru (İordaniya), Korvinus Universitetinin ictimai elmlər üzrə Fəxri doktoru (Macarıstan), M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Fəxri professoru (Rusiya Federasiyası), Taras Şevçenko adına Kiyev Milli Universitetinin Fəxri doktoru (Ukrayna), Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin Fəxri professoru (Türkmənistan Respublikası), Bakı Dövlət Universitetinin Fəxri doktoru (Azərbaycan), Belarus Dövlət Universitetinin Fəxri professoru (Belarus Respublikası), Ankara Universitetinin Fəxri dokrotu (Türkiyə), Çukurova Universitetinin Fəxri Doktoru (Türkiyə).*



# Cahangirova Nazilə



**Uşaqlıqda öyrənilən elm daş üstə yazıya bənzər.**
***Məhəmməd Peyğəmbər***

Bugün Azərbaycanda təhsil islahatları proqramının həyata keçirilməsi istiqamətində inamlı addımlar atılır, respublikamızın inkişafı üçün savadlı və yüksək potensiala, bilik və bacarıqlara malik olan yaradıcı gənclərin yetişməsinin cəmiyyətdə xüsusi yeri vardır. Məhz belə gənclərdən biri də Nazilə Cahangirovadır. O, gələcəyə inamla baxır və inanır ki, hər şeyə ancaq zəhmətlə nail olanlar həyatda yanılmır.

Cahangirova Nazilə Zaur qızı 19 iyun 2008 - ci ildə Göygöl şəhərində anadan olmuşdur. 2013 - cü ildə Göygöl şəhər 6 saylı tam orta məktəbinin 1 - ci sinfinə getmişdir. Hal - hazırda isə həmin məktəbin 5 - ci sinif şagirdidir. Nazilənin ən sevdiyi fənn Riyaziyyat, ən sevimli müəlliməsi isə Nigar müəllimədir. Gözəl qızımız az yaşı olmasına baxmayaraq, 2 dəfə Akademiya kurslarında təşkil olunan bilik yarışmasında rayon üzrə birinci yerə çıxmışdır. O, asudə vaxtlarında boş oturmur, biliyini daha da inkişaf etdirmək üçün əlavə testlər işləyir. Həmçinin Nazilənin hobbiləri sırasında kitab oxumaq və voleybol oynamaq da daxildir. Ailədə 6 nəfərdən ibarətdirlər. Ziyalı ailəsində doğulan qızımızın ən böyük arzusu beyin cərrahı olmaqdır. Biz də onun bu arzusunu reallaşdıracağına inanır və ona bu yolda bol - bol uğur arzu edirik!

# Abdiyeva Tərlan



**Ən böyük ideal səadət axtarmaq, ən böyük iş isə elm oxumaqdır.**

***N. Tusi***

İnsan həyatının hərtərəfli tərəqqisinə hava kimi lazım olan elmə İslami ədəbiyyatda nə qədər önəm verildiyi hər kəsə məlumdur. İstər səmavi kitab olan Quranda, istərsə də başqa islami mənbələrdə bəşər övladına elmin dəyəri və insan həyatındakı əvəzedilməz rolu barədə daim xəbərdarlıqlar edilmiş, elm öyrənənlərə, alimlərə böyük hörmətlə yanaşılmış, cəhalət və cahillər isə kəskin şəkildə məzəmmət olunmuşdur.

Abdiyeva Tərlan Nazir qızı 14 iyul 2008 - ci ildə Qızılca qəsəbəsində anadan olmuşdur. 2014 - cü ildə Firuzabad qəsəbəsinin 1 - ci sinfində təhsil almağa başlamışdır. Hal - hazırda isə həmin məktəbin 4 - cü sinif şagirdidir. Balaca qızımızın ən çox sevdiyi fənlər Azərbaycan dili və Riyaziyyatdır. Ən sevimli müəlliməsi isə Elyana müəllimədir. Tərlan qızımız böyüdükdə ya insanlara sağlamlıq bəxş edən bir həkim, ya da özü kimi savadlı vətəndaşlar yetişdirən bir müəllimə olmaq istəyir. Atası Nazir bəy, anası Xəyalə xanım və böyük qardaşı Eyvaz hər zaman evin son beşiyi olan Leylaya dəstək olublar. Leyla dərslərini bitirdikdən sonra, qalan boş vaxtlarında bədii kitab oxumağı və ya oyunlar oynamağı çox sevir.

Biz də balaca qızımıza gələcək həyatında uğur və nailiyyətlər arzu edirik!



# Hüseynov Kəramət



**Həqiqi müəllim adını daşıyan insan həmişə, tarixin ən çətin dövrlərində dəyanətli, dözümlü olubdur və mənəviyyatını hər şeydən yüksək tutubdur.**

**Heydər Əliyev**

Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq.

Hər birimiz üçün müəllim doğma və əzizdir. Çünki müəllim bizə təhsil verir, dərs öyrədir, yol göstərir, daim qayğımıza qalır. Buna görə də müəllimlərimizi böyük ehtiram və hörmətlə xatırlayırıq. Öyrəndiklərimizə görə həmişə onlara minnətdarıq.

Müəllimlər cəmiyyətin memarlarıdır desək, yəqin ki, səhv etmərik. Bu danılmaz bir həqiqətdir ki, hər kəsin layiqli vətəndaş kimi formalaşmasında müəllimlərimizin əvəzsiz xidmətləri vardır.

Həyatını bu işə həsr edən, cəmiyyətə, millətə faydalı nəsil yetişdirmək üçün var gücü ilə çalışan və dərs dediyi bütün şagirdləri tərəfindən sözün əsl mənasında sevilən və hörmət edilən müəllimlərimizdən biri də Hüseynov Kəramət müəllimdir.

Hüseynov Kəramət Mütəllim oğlu 26 iyul 1977-ci ildə Göygöl rayon Pənahlılar kəndində anadan olub. Orta təhsilini Göygöl rayon Pənahlılar kənd tam orta məktəbində almış, məktəbi bitirdikdən sonra Gəncə Dövlət Universitetinin İbtidai hərbi fiziki hazırlıq ixtisasının 1-ci kursuna daxil olmuşdur. 1999-cu ildə təhsilini başa vurmuş və müəllim kimi fəaliyyət göstərməyə başlamışdır. 2013-cü ildə isə M. Cəfərov adına Göygöl rayon Pənahlılar kənd tam orta məktəbində direktor vəzifəsində işləməyə başlamışdır. Ailəlidir üç övladı var.

Müəllim kimi fəaliyyətə başladığı ilk gündən kollektiv arasında hörmət qazanan, dərs dediyi bütün şagirdlərin sevimli müəllimi olan, sözün əsl mənasında gələcəyə sağlam düşüncəli, vətəna layiq vətəndaşlar yetişdirən Kəramət müəllimə biz də öz adımızdan təşəkkür edir. Bir müəllim üçün ən dəyərli sərvət olan bolbol şagird uğurları arzu edirik!

# Rzayeva Səyyarə



**Heykəltəraş mərmər üçün hansı rolu oynayırsa, müəllim də uşağın həyatında həmin rolu oynayır.**

**Jozef Adddison**

Belə deyim var: "Şəxsiyyətin ahəngdar inkişafı vəzifəsi, ilk növbədə, müəllimin üzərinə düşür". Müəllim cəmiyyətdə çox böyük rol oynayır. O, yaşlı nəslin təcrübəsini gənc nəslə verir. Cəmiyyətin, millətin gələcəyi müəllimin əlindədir.

Bəli, müəllimlik müqəddəs peşədir. Bu şrəfli peşənin sahibləri arasına adını yazdıranlardan biri, bu müqəddəs peşəyə sözün əsl mənasında layiqli olmağa çalışan müəllimlərimizdən biri də Rzayeva Səyyarə müəllimədir.

Rzayeva Səyyarə İsa qızı 1952-ci ildə Azərbaycan SSR-nin Xanlar rayonunun Pənahlılar kəndində kolxozçu ailəsində anadan olub. 1959-cu ildə Pənahlılar kənd 8 illik məktəbinin 1-ci sinfinə daxil olub. 1970-ci ildə həmin məktəbin 10-cu sinfini bitirib, 1971-ci ildə H. Zərdabi adına KDPİ-nin İbtidai təhsil metodikası fakültəsinin qiyabi şöbəsinə daxil olub. 1973-cü ildən bu günə qədər Pənahlılar kənd orta məktəbində müəllim kimi fəaliyyət göstərir.

Müəllim kimi fəaliyyətə başladığı ilk gündən kollektiv arasında hörmət qazanmış, dərs dediyi bütün şagirdlərin sevimli müəlliməsinə çevrilməyi bacarmışdır Səyyarə müəllimə. O sözün əsl mənasında vətənimizin gələcəyinə sağlam düşüncəli, savadlı gənclər bəxş edən bir müəllimdir.

Biz Səyyarə müəlliməyə tutduğu bu müqəddəs yolda müvəffəqiyyətlər diləyir, ona təşəkkür edirik və bir müəllim üçün ən dəyərli sərvət olan bol-bol şagird uğurları arzu edirik!



# Əliyeva Nazənin



**Elm can quşunun qanadıdır. Elmsiz ürək işıqsız gözə bənzəyir.**

***Əhvədi***

Hər bir gənc böyüdükcə həyat faktlarını təhlil edir, nəticə çıxarır, həyatda öz mövqeyi, yerləri haqqında düşünür. İnsan özünü dərk etməklə, yaşam zirvəsini müəyyən etməklə həyatda fəal mövqe tuta bilir. Fəal həyat mövqeyinin isə birinci əsas komponenti elm və bilikdir. Elmi, əxlaqi - etik biliklərə yiyələnmiş məktəblinin həyat amalı möhkəm olur. Leyla da dərslərini əla qiymətlərlə oxuyan şagirdlərdəndir. O, elmi biliklərə yiyələnir, həyatda fəal mövqe tutmaq üçün savadını və dünya görüşünü artırmağa çalışır.

Süleymanlı Leyla Natiq qızı 28 fevral 2005 - ci ildə Daşkəsən rayonunda dünyaya göz açmışdır. 2012 - ci ildə Göygöl rayon, Firuzabad qəsəbəsinin tam orta məktəbinin 1-ci sinfinə başlayaraq, təhsil yolunda ilk addımlarını atmışdır. Leyla hal - hazırda həmin məktəbin 7 - ci sinif şagirdidir. O, tarix, kimya və riyaziyyat fənlərini çox sevir. Ən çox sevdiyi müəllimləri isə Fəridə və Sevinc müəllimələrədir. Haqsızlığın əleyhinə olan Leylanın gələcəkdə ən böyük arzusu yüksək nəticə ilə universitetə qəbul olaraq hüquqşunaslıq sənətinə yiyələnməkdir. Leyla təkcə təhsil almaqla kifayətlənmir, həmçinin musiqi ilə məşğul olmağı da çox sevir. O, bir çox musiqi yarışlarında iştirak edərək, müxtəlif dərəcəli yerlər tutmuşdur. Leyla boş vaxtlarında bədii kitablar oxumağı və musiqi dinləməyi çox sevir. Atası Natiq bəy, anası Xəyalə xanım, bacısı Aytac və kiçik qardaşı İsmayıl hər zaman gözəl qızımız Leylaya dəstək çıxır, onun hər anında yanında olurlar.

Arzu edirik ki, Leylanı gələcəkdə tanınmış hüquqşunas kimi görək və onun uğurlarına valideynləri ilə birlikdə biz də sevinək!

# Məmmədova Nəzrin



**Hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır.**

***Abdulla Şaiq***

Elmin cəmiyyətdə, xalqın və ölkəmizin inkişafında əvəz edilməz rolu vardır.Bunun üçündə savadlı kadırların yetişməsi ən böyük amillərdən biridir.Müasir dövrümüz yüksək texnika dövrü,yüksək sivilizasiya dövürüdür.Bu dövrdə yüksək elmi səviyyə,dərin bilik tələb olunur.Elm və bilik yalnız oxumaqla, öyrənməklə əldə edilir.

Bu gün parta arxasında sevimli müəllimlərindən elmin dərinliklərini öyrənən Nəzrindən bəhs edəcəyik.Məmmədova Nəzrin Araz qızı 1 avqust 2010 -cu ildə Zərdab rayonunda dünyaya göz açıb.2015-ci ildə Kəlbəcər rayon 19 saylı tam orta məktəbin 1-ci sinifinə qədəm qoymuşdur və hal-hazırda həmin məktəbin III sinifində təhsil alır.Boş vaxtlarında kitab oxumaqa böyük marağı olan Nəzrin hekayələri çox sevir.Nəzrin bütün fənnləri oxusada ən çox sevdiyi fənnlər Azərbaycan dili və Riyaziyyatdır.Nəzrin hətta uğurlarına və ona verilən savada görə ən çox sevdiyi müəllimlərindən olan Dürrə müəlliməyə və Şakir müəllimə borclu olduğunu deyir və onlara təşəkkür edir.Nəzrin gələcəkdə həkim peşəsinə yiyələnib cəmiyyətə və xalqa həkim kimi töhvələr vermək istəyir.O , sinif üzrə əlaçı uşaqlardan biridir və muəllimlərinin sevimlisidir.Nəzrinin ailəsi 4 nəfərdən ibarətdir.

Atası, Məmmədov Araz fərdi əməklə məşğul olaraq hər bir ata kimi övladlarının arzularını heyata keçirməyə çalışır.

Anası, Məmmədova Xəyalə işləyərək ailəsinə dəstək olur.

Bacısı, Məmmədova Qumru Kəlbəcər rayon 19 saylı tam orta məktəbin 1-ci sinifində təhsil alır.

Biz bu kiçik müsahibimizə gələcək həyatında uğurlar arzulayırıq!



# İsmayılov Kamal



**Bir cəmiyyətin millət ola bilməsi üçün mütləq müəllimlərə ciddi ehtiyacı var: onlar cəmiyyəti həqiqi bir millət halına gətirirlər.**

**Kamal Atatürk**

"İnsan memarı" olan müəllim insanı hikmət sarayı, nizam yolu olan məktəbə səsləməklə onu haqqın yoluna, bəşəriyyətin diriliyinə, hüriyyətin varlığına istiqamətləndirir. "Millətin bel sütunu" olan məktəbdə bizlərə millət, vətən, ana, torpaq sevgisini aşılayır müəllim.

"Anadangəlmə pedaqoq" olan Firidun bəy Köçərli "Molla Nəsrəddin" jurnalının 1913-cü ildə çap olunan 22-ci sayında yazırdı: "Bir millətin malını, dövlətini və hətta vətənini əlindən alsan, ölüb-itməz, amma dilini alsan, fot olar ondan bir nişan qalmaz". O dillə müəllim bizə ANA, VƏTƏN sözlərini yazmağı öyrətdi. O dillə əxlaqımızı nurnandırdı, varlığımızı bəyan etdi dünyaya.

Yüksək mədəniyyətə və mənəviyyata malik bir insan, sözün əsl mənasında yaxşı müəllimlərdən biri də İsmayılov Kamal müəllimdir.

İsmayılov Kamal Şakir oğlu 1961-ci il Xanlar rayon Pənahlılar kəndində müəllim ailəsində anadan olub. 1977-ci ildə Pənahlılar kənd orta məktəbini bitirib. 1977-ci ildə Kirovabad şəhər 27 nömrəli texniki peşə məktəbinə daxil olub, 1978-ci ildə həmin məktəbi bitirib. 1979-cu ildə hərbi xidmətə yollanmış və 1981-ci ildə ildə hərbi xidməti başa vurmuşdur. 1982-ci ildə H. Zərdabi adına KDPİ-nin bilologiya ixtisasının qiyabi şöbəsinə daxil olmuş və 1987-ci ildə təhsilini başa vurmuşdur. Təhsilini başa vurduqdan sonra 25 avqust 1983-cü ildən bu günə qədər M. Cəfərov adına Pənahlılar kənd orta məktəbində biologiya müəlimi kimi fəaliyyət göstərir.

Müəllim kimi fəaliyyətə başladığı ilk gündən kollektiv arasında hörmət qazanan, dərs dediyi bütün şagirdlərin sevimli müəllimi olan Kamal müəllimə biz də öz adımızdan təşəkkür edir. Bir müəllim üçün ən dəyərli sərvət olan bol-bol şagird uğurları arzu edirik!

# Şahverdiyev Seminar



**“Azərbaycan”- deyiləndə ayağa dur ki,**
**Ana yurdun üreyinə toxuna biler.**
***M.Araz.***

Haqqında söhbət açacağımız növbəti məktəbli dərslərində fəallığı xüsusi qabiliyyəti gözəl rəsm çəkmək istedadı ilə fərqlənən,oxuduğu məktəbin seçilən fəal şagirdlərindən olan Şahverdiyev Seminar 20 avqust 2003 - cü ildə Göy-göl rayonunun Kərəmli kəndində ziyalı ailəsində dünyaya göz açıb. 2009-cu ildə Kərimli kənd tam orta məktəbin 1-ci sinifinə qəbul olub.Seminar hal-hazırda həmin məktəbin XI sinifində təhsil alır.Seminar həmdə sinif üzrə fəallığı ilə seçilir və müəllimlərinin sevimli şagirdlərindən biridir.Boş vaxtlarında idmanla məşqul olmağı çox sevir.İdman üzrə hətta bir çox uğurları da vardır. Seminar gələcəkdə hüquqşünas peşəsinə yiyələnmək istəyir və hüquqşünas olaraq xalqın hüquqlarını müdafiyə etmək arzusundadır. Dərslərinə məsuliyyətlə yanaşan Seminar əldə etdiyi naliyyətlərinə görə bütün müəllimlərinə borclu olduğuna deyir və onlara təşəkkür edir. Seminarın ailəsi 6 nəfərdən ibarətdir.

Seminarın atası Şahverdiyev Azər ali təhsillidir və polisdir. Hal-hazırda Cinayət Axtarışı idarəsinin şöbə rəisidir.

Anası , Şahverdiyeva Nailə ali təhsillidir.Hal-hazirda Kərəmli tam orta məktəbində psixoloq kimi fəaliyyet göstərir.

Qardaşı , Şahverdiyev İslam Göygöl rayonunda anadan olub.Hal - hazirda Kərəmli tam orta məktəbinin 2-ci sinif şagirdidir.

Bacısı, Şahverdiyeva Naze Göygöl rayonunda doğulub və hal-hazırda Kərəmli tam orta məktəbinin IX sinif şagirdidir.

Bacısı, Şahverdiyeva Gülpəri Göy-göl rayonunda anadan olub və hal- hazırda Kərəmli tam orta məktəbinin VIII sinif şagirdidir.

Biz öz növbəmizdə Seminara seçdiyi hüquqşünas peşəsinin peşəkarı olmağı,bir sözlə biliklə silahlanan insan olmağı arzu edirik! Yolun hər zaman daim açıq olsun!



# Abbasov Amil



**Hər qaranlıqda çırpınır bir nur,**
**Hər həqiqətdə bir xəyal uyuyur.**
***Hüseyn Cavid***

Hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır.İnsanların arzuladığı peşədən asılı olmayaraq sahib olduğu peşəsinin dərinliklərini öyrənməyə cəhd etməlidir. Haqqında söhbət açacağımız növbəti məktəbli dərslərində fəallığı xüsusi əl qabiliyyəti ilə fərqlənən,oxuduğu məktəbin seçilən fəal şagirdlərindən olan Amildir. Abbasov Amil Elman oğlu 11 aprel 2007- ci ildə Bakı şəhərində anadan olub. Amil 2014 -cü ildə Kəlbəcər rayon 19 saylı tam orta məktəbin 1- ci sinifinə qəbul olub və hal-hazırda həmin məktəbin 4- cü sinifinə qəbul olub.Gələcəkdə polis peşəsinə yiyələnmək arzusunda olan Amil polis olaraq xalqın keşiyində olmaq durmaq istəyir.Dərslərində olduqca fəal olan Amil sinif üzrə əlaçılardan biridir və müəllimlərinin sevimlisidir.Bütün fənnləri yaxşı oxuyan Amil daha çox Texnalogiya fənnini sevir və çox gözəl əl işləridə vardır.Amil uğur və naliyyətlərinə görə bütün müəllimlərinə borcludur xüsusilədə Nadirova İlhamə müəlliməyə təşəkkür edir.Amil boş vaxtlarını kitab oxumaq və müxtəlif əl işləri düzəltməklə dəyərləndirir. Amilin ailəsi 4 nəfərdən ibarətdir.

Atası,Abbasov Elman fərdi əməklə məşqul olaraq ailəsinin övladlarının istəklərini yerinə yetirməyə çalışır.

Anası, Abbasova Leyla evdar xanımdır.

Qardaşı, Abbasov Hüseyin az yaşlıdır.

# Ağayeva Adilə



**Ağıllı və bacarıqlı adamlar axıradək mübarizə aparır.**

***D. İ. Pisarev***

O xalq xoşbəxtdir ki, onun gəncləri özündən əvvəlki nəsillərdən daha savadlı, qüdrətli, daha hazırlıqlı yetişir. Gənclik o qədər böyük qüvvədir ki, onun arzu və iradəsi qarşısında hər şey əyilir, ona tabe olmağa məcbur olur. Odur ki, gənclər öz gələcəyinə göz yummayıb, qiymətli saatlarından, günlərindən səmərəli istifadə etməli, elə mətanət və həvəslə çalışmalıdırlar ki, sonra peşman olmayıb, zəhmətlərinin şirin meyvələrini dərdikləri zaman o günləri fəxrlə yada salsınlar. Dövlətimiz gənc nəslin daha mükəmməl yetişməsi üçün hər şey etməkdədir. Bundan düzgün şəkildə yararlana bilmək isə hər bir kəsin öz əlindədir.

Gələcəkdə vətəninə layiq övlad olmaq istəyənlərdən biri də Ağayeva Adilə Ceyhun qızıdır. O, 2001 - ci ildə Bakı şəhərində anadan olmuşdur. Əslən isə Cəbrayıl rayonunun Şükürbəyli kənd sakinidir. Təhsil yolunda ilk addımlarından biri, 2008 - ci ildə Füzuli rayonunun Bakı şəhərində yerləşən 47 saylı tam orta məktəbinin 1 - ci sinfinə başlaması olmuşdur. Adilə hal - hazırda həmin məktəbin 11 - ci sinif şagirdidir. Onun ən böyük arzusu məktəbi bitirib universitetə qəbul olmaq və ixtisaslı bir kompüter mühəndisi kimi yetişməkdir. Həmçinin Adilə incəsənəti də çox sevir. O, gözəl rəsmlər çəkməyi bacarır. Bununla yanaşı məktəbdə müəllimərinin sevimlisi və əlaçıdır. Ailələri ata, ana, qardaş və bacısı olmaqla 5 nəfərdən ibarətdir. Onlar hər zaman qızlarına dəstək çıxır, hər anında yanında olurlar. Biz də öz növbəmizdə Adiləyə gələcək həyatında bol - bol uğurlar arzu edirik.



# Rüstəmov Məzahir



**Müəllim bir memar, ya mühəndisdir ki, insanların düşüncələrini, ağlını düzəldir.**

**Atalar sözü**

Cəmiyyəti idarə edən hər kəsin - fəhlənin, mühəndisin, həkimin, alimin tərbiyəsində müəllimin rolu əvəzedilməzdir. Müəllimlik şərəfli, müqəddəs və bir o qədər də çətin peşədir. Müəllim şagirdlərin dostu, sirdaşıdır, həmçinin şagirdlərin düzgün addim atmasında bələdçi rolu oynayır.

Hər birimizi sirli-sehrli aləminə qovuşduran, həyatın keşməkeşli yollarında bələdçimiz olan, ömür qapılarını üzümüzə açan müəllimlərimiz olmuşdur. Şagirdlərinə sonsuz sevgi, qayğı və mərhəmət hissi ilə yanaşan müəllimlərimizdən biri də Məzahir müəllimdir.

Rüstəmov Məzahir Tağı oğlu 26 oktyabr 1955-ci ildə Göygöl rayonunda anadan olub. 1963-cü ildə Göygöl rayon Pənahlılar kənd orta məktəbinin 1-ci sinfinə qəbul olub. 1974-cü ildə həmin məktəbin 10-cu sinfini bitirib. Məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb. 1978-ci ildə Gəncə Dövlət Universitetinin Riyaziyyat fakültəsinə daxil olmuş, 1983-cü ildə həmin universiteti bitirib. Universiteti bitirdikdən sonra Göygöl rayon Pənahlılar kənd orta məktəbində riyaziyyat müəllimi kimi fəaliyyət göstərir. Ailəlidir, 5 övladı var.

Müəllim kimi fəaliyyət göstərdiyi ilk gündən kollektiv arasında hörmət qazanmış, öz şagirdlərinin sevimli müəlliminə çevrilmişdir Məzahir müəllim. O, öz şagirdləri üçün yalnız elmin sirrlərini açan bir müəllim yox, həmçinin onların saf mənəviyyatına, hisslər, duyğular aləminə yeni-yeni lövhələr, məziyyətlər, nur və sevinclər gətirən biri olmağı bacarmışdır.

# Bağırov Nicat



**Çalışmaq həyat, düşünmək işıqdır...**
***Viktor Hüqo***

Elm zülmətdən işıqlığa və səadət nuruna yetişməkdə bəlkə də yeganə vasitədir. Hər bir cəmiyyətin həyat səviyyəsinin yüksəlişi, tərəqqisi elmə marağın hansı səviyyədə olmasından aslıdır. Cəhalət və savadsızlığın hakim olduğu bir təbəqə və cəmiyyət sonunda süquta məhkumdur. Bunu dərk edən, hər zaman oxumağa, yeni biliklərə yiyələnməyə can atanlardan biri də Nicat balamızdır.

Bağırov Nicat Məzahir oğludur. O, 19 noyabr 2002 - ci ildə anadan olmuş, 11 - ci sinfi yüksək nəticə ilə bitirərək Azərbaycan Dövlət Polis akademiyasına daxil olmuşdur. Məhz bu sahəni seçərək, vətənimizə daha layiqli şəkildə qulluq etmək istəyir. Ailəsi də hər zaman onun bu seçimini dəstəkləmiş, onun yanında olmuşdur.

Nicat boş vaxtlarında idmanla məşğul olmağı xoşlayır. Onun ən sevimli hobbisi isə musiqi dinləməkdir. Biz də ona zəngin həyat və sonsuz xoşbəxtlik arzulayırıq. İnanırıq ki, o, bütün arzu və istəklərinə çatıb, doğmalarının və onu sevən hər kəsin, etimadını doğruldacaq, vətənimizin fəxri olacaqdır!

# Süleymanlı Leyla



Ömür beşikdən başlanır. Nəhəng çaylara körpə çeşmələr süd verir. Geniş yolların kökü xırda cığırlardır. Bizə qanad verən isə balaca yuvalardır. Ata - ana istəyini, baba hirsini və nənə ipəkliyini, yazın və yayın, payızın və qışın rəng, duyğu dəyişmələrini, tariximizi, ana dilimizi və bu dildə oxuduğumuz ilkin nəğmənin xoşbəxtliyini - bir sözlə dünyanın bütün sirlərini məhz bu balaca yuvalarda görmüşük.

Süleymanlı Leyla Natiq qızı 28 fevral 2005 - ci ildə Daşkəsən rayonunda anadan olmuşdur. Hal - hazırda Göygöl rayonunun Firuzabad qəsəbə tam orta məktəbinin 7 - ci sinif şagirdidir. Leyla tarix, riyaziyyat və kimya fənlərini çox sevir. Həmçinin onun ən sevimli müəllimələri isə Fəridə və Sevinc xanımdır. Haqsızlığn əleyhinə olan Leylanın ən böyük arzusu gələcəkdə hüquqşünas olmaqdır. Leylanın musiqi sahəsinə də marağı yüksəkdir. O, bir çox yarışlar da iştirak etmiş, müxtəlif dərəcəli yerlər tutmuşdur. Həmçinin Leyla boş zamanlarında anasına yemək hazırlamaqda yardım edir, qalan vaxtında isə musiqi dinləyərək bədii kitablar oxuyur. 5 nəfərdən ibarət olan Cəfərovlar ailəsi hər zaman sevimli qızlarına dəstək olmuşlar.

Biz isə əminik ki, Leyla gələcəkdə hüquqşünaslıq fəaliyyətinin daha da müasirləşdirilməsində, dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, yüksək nəzəri biliklərə malik bir hüquqşünas kimi formalaşacaqdır.

# Həsənov Mahir



Deyirlər ki, hər kəsin taleyində müəllimin yeri var. Bu, həqiqətən belədir. Məktəb partası arxasında keçən illərdə müəllimlər bizə qətrə-qətrə Vətənə, torpağa sevgi hissi aşılayırlar. Biz Azərbaycanın keşməkeşli tarixi, ana yurdumuzun təbiətinin gözəllikləri, xalqımızın dostları və düşmənləri barədə müəllimlərimizdən çox şey öyrənmişik. Biz onların sayəsində bütün varlığımızla xalqımızın əsrlərin sınağından çıxan adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə bağlanmışıq, dünyagörüşümüz, həyata sağlam baxışımız formalaşıb. Cəmiyyətdə müəllimlik çox şərəfli, müqəddəs peşə hesab olunur. Alim də, sərkərdə də, bir sözlə, həyatda tutduğu mövqedən asılı olmayaraq hər kəs müəllimi qarşısında baş əyir, ona səcdə qılır, onu həmişə xoş duyğularla yada salır.

Bu müqəddəs peşənin sahibi olan, bu şərəfli adı layiqincə daşıyan müəllimlərimizdən biri də Həsənov Mahir müəllimdir.

Həsənov Mahir Vaqif oğlu 26 mart 1980-cı il Göygöl rayon Pənahlılar kəndində anadan olub. 1986-cı ildə orta məktəbin 1-ci sinifinə qəbul olub və 1997-ci ildə orta təhsilini başa vurmuşdur. Orta məktəbi bitirdikdən sonra Gəncə Dövlət Universitetinin Riyaziyyat ixtisasının 1-ci kursuna daxil olmuşdur. 2001-2002-ci illərdə hərbi xidmətə yollanmışdır. 2005-ci tədris ilindən M. Cəfərov adına Pənahlılar kənd orta məktəbində müəlimi kimi fəaliyyət göstərir. 2009-cu ildən isə elə həmin məktəbdə sinifdən xaric-məktəbdən kənar işlər üzrə direktor müavini işləyir. Ailəlidir, iki övladı var.

Müəllim kimi fəaliyyət göstərdiyi bütün bu illər boyu Mahir müəllim, bu yolda bütün insanlığa nümunə ola biləcək müstəsna bir həyat yaşamışdır. Öz şagirdlərinə daima az ruzi ilə qənaət edərkən toxgöz olmağı, incindiyində əff etməyi bacarmağı, uşaqlara qarşı hərəkətlərində mərhəmətli, mülayim və sevgicanlı olmağı, ailəiçi münasibətlərdə daima sadiq və mehriban olmağı, dostlarına və bütün insanlara qarşı sadiq, sadə və təvazökar olmağı, bitki və heyvanat aləminə belə rəhmət və mərhəmətli olmağı öyrətmişdir.



# Cəfərov Bəhman



**"Müəllimi olmayan millət hələ millət adını daşımağa layiq deyil".**

**Onore de Balzak**

Milləti millət kimi formalaşdıraraq ədəb-ərkan dərsi verən də, onu dünya biliklərindən hali edərək ucaldan da müəllimdir. Ona görə də "bir cəmiyyətin millət ola bilməsi üçün mütləq müəllimlərə ehtiyac var: onlar cəmiyyəti həqiqi bir millət halına gətirirlər". Unutmayaq ki, "insanları aydınlığa çıxaran işığ"a bənzədilən müəllim "ana kimi şəfqətli, ata kimi güvənli" bir insandır. O insan ki, "özünü əridərək başqalarına işıq verər". O işıq ki, cəhaləti öz qılıncı ilə yararaq milləti nura qərq edər.

Bəli, şəxsiyyət kimi formalaşmaq üçün hər birimizin həyatının ən önəmli, ən vacib varlıqlarıdır müəllimlərimiz. Bizə həyatın keşməkeşli yollarında yol göstərəndir müəllimlərimiz.

Həyatını bu işə həsr edən, cəmiyyətə, millətə faydalı nəsil yetişdirmək üçün var gücü ilə çalışan və dərs dediyi bütün şagirdləri tərəfindən sözün əsl mənasında sevilən və hörmət edilən müəllimlərimizdən biri də Cəfərov Bəhman müəllimdir.

Cəfərov Bəhman Bayram oğlu 1955-ci il 26 avqust Azərbaycan SSR Xanlar rayonu Çaylı sovetliyinin Pənahlılar kəndində kolxozçu ailəsində anadan olub. 1963-cü ildə Pənahlılar kənd orta məktəbinin 1-ci sinifinə daxil olub və məktəbi bitirdikdən sonra 1973-cü ildə H. Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinin 1-ci kursuna qəbul olub. Bəhman müəllim orta məktəb illərində olduğu kimi institut illərində də təhsildə fərqlənmiş, institutun ictimai işlərinin fəal iştirakçısı olmuşdur. 1977-ci ildə H. Zərdabi adına KDPİ-nin Azərbaycan dili və ədəbiyyatı fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. İnstitutu bitirdikdən dərhal sonra Xanlar rayon RXMS-in sərəncamına göndərilmişdir. Bir il Mixaylovka kənd orta məktəbində, beş il Dozular kənd 8 illik məktəbində işləyib. 1983-cü ildən bu günə qədər isə Pənahlılar kənd orta məktəbində müəllim kimi fəaliyyət göstərir. Ailəlidir üç övladı var.

Həyat yoldaşı - Cəfərova Yasəmən Yaşar qızı. Evdar xanımdır.

Oğlu - Cəfərov Elnar Bəhman oğlu.

Qızı - Cəfərova Elnarə Bəhman qızı.

Qızı - Cəfərova Nərmin Bəhman qızı.

Bu gün də yorulmadan öz müqəddəs peşəsini şərəflə davam etdirən, xalqımıza, millətimizə, dövlətimizə layiq gələcək nəsil yetişdirən Bəhman müəllimə möhkəm, tükənməz enerji, bilik, sağlamlıq, bacarıq, səbr, iradə arzu edirik.

# Abbasova Lala



**“Mən dünyada müəllimdən yüksək ad tanımıram”**

**Heydər Əliyev**

Ulu öndər Heydər Əliyev də həmişə gənc nəslə böyük ümidlər bəsləyib, onlarla görüşlərində, mötəbər tədbirlərdəki çıxışlarında Azərbaycanın gələcəyi olan gənclərin hərtərəfli yetişdirilməsi üçün təhsilin ən vacib və zəruri məsələlər sırasında olduğunu vurğulayırdı. Bu vacib məsələnin həllində təhsil ocaqlarının və müəllimlərin üzərinə böyük vəzifələr düşür. Yaxşı haldır ki, belə müəllimlər içərisində gənclər də çoxluq təşkil edir. Onlar şagirdlərin dərin və hərtərəfli təhsil almaları, yaşadıqları dövrün problemlərindən çıxış yolu tapmaları üçün öz bilik və bacarıqlarını əsirgəmirlər.

Belə müəllimlərdən biri də Göygöl rayon Pənahlılar kənd orta məktəbinin təsviri incəsənət müllimi Abbasova Lalə müəllimədir.

Abbasova Lalə Elbrus qızı 1990-cı ildə Gədəbəy rayonunda anadan olub 1997-ci ildə Gəncə şəhər 39 nömrəli məktəbin 1-ci sinfinə qəbul olub. 2008-ci ildə Gəncə şəhər 16 nömrəli məktəbi bitirib. 2010-cu ildə Gəncə Dövlət Universitetinin Təsviri İncəsənət müəllimliyi ixtisasına qəbul olub və 2014-cü ildə təhsilini fərqlənmə diploma ilə başa vurub. Ali təhsilini başa vurduqdan sonra Təhsil Nazirliyinin test imtahanından yüksək nəticə göstərərək (52 bal) Göygöl rayon Pənahlılar kənd orta məktəbinə təsviri incəsənət müllimi təyin olunub. Ailəlidir bir övladı var.

Həyat yoldaşı - Məmmədov Vüsal Çingiz oğlu 1991-ci ildə anadan olub. Ali təhsillidir. Fiziki tərbiyə müəllimidir. Hal-hazırda fərdi işlə məşğul olur.

Qızı - Məmmədova Ayan Vüsal qızı. 2017-ci ildə Gəncə şəhərində anadan olub.

Hər bir şagirdinə xüsusi qayğıyla yanaşan, onlara düz yol göstərən, yaşamaq üçün mükəmməl insan olmalarında onlara stimul verən, həqiqətən gözəl müəllimə olan Lalə müəlliməyə biz də öz növbəmizdə minnətdarlığımızı bildirir, ona bir müəllim üçün ən dəyərli sərvət olan bol-bol şagird uğurları arzu edirik!

# Qənbərli Sona



“Elm tükənməz xəzinədir və o xəzinənin açarı isə soruşub öyrənməkdir. Soruşub öyrənin çünki soruşduqda 4 adama savab düşür. Soruşana, öyrənənə, dinləyənə, bunları sevənə. Elm Allahın yer üzündə qoyduğu əmanət, alimlər isə Allah elminin əmanətdarlarıdır. Hər kəs öz elminə əməl etsə həqiqətdə əmanəti layiqincə sahibinə qaytarmışdır.”

Əlində olanları sonuna qədər dəyərləndirən, öz istedad və bacarığının fərqində olan Sona hər zaman bir amalla yaşayıb. Nə olursa olsun, həvəsdən düşmədən istədiyinə can atmaq və məqsəd nə olur, olsun ona nail olmaq. Bu düşüncədir ki, elə Sonanın uşaqlığından bəri əlinə aldığı hər bir işi həvəslə və motivasiya ilə yerinə yetirib. Məktəb və elm onun üçün irəli addımladığı yolda bir açar olub. O bütün sirlərin qapısını açıb özünə lazım olanı alacaq bu həyatdan. Bu qədər iddialı və istedadlı qızdır mühasibimiz.

Qənbərli Sona Vasif qızı 9 iyun 2011-ci ildə Ağsu rayonunda anadan olub. Sona 2017-ci ildə Zəngilan rayonu 9 saylı məktəbin 1-ci sinifinə qədəm qoyub. Balaca Sonamız hazırda həmin məktəbin 2-ci sinifində oxuyur. Sona dərs əlaçısıdır, həm də sinif nümayəndəsidir. Boş vaxtlarında şəkil çəkməyi çox sevir, həm də çox gözəl əl işləri hazırlayır.

Onun hal-hazırda məqsədi məktəbi mükəmməl şəkildə bitirmək, təhsilini ən yaxşı səviyyədə öyrənib sevdiyi peşəsinə yiyələnmək istəyir. Hər başladığı işdə uğur qazanmağı qarşısına məqsəd qoyan Sona bunun da öhtəsindən məharətlə gələcəyinə əmindir. Özünə inamla, dürüst şəkildə yaşamaqla hədəf və arzularını reallaşdırmağa çalışaraq daima ailəsinin fəxri olmağa səy göstərir. Sona müəllimləri, qohumları, yaxınları arasında hər zaman tərbiyəsi, yaşına görə inkişaf etmiş dünyagörüşü ilə seçilib. Ana və atasının zəhmətlərini göz önündə tutan Sona onların adına layiq olmağa çalışdığını deyir. Bizdə Sonanın həyat axarının rəngarəng olmasını ümid edirik və həyatda onu uğurlar arzu edirik.






2013-cü ildən nəşr olunan Təhsil Yenilikləri qəzeti və eyni adda xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir. Öz saylarında daha çox təhsil, təhsildəki yeniliklər haqqında məlumat verir.

Xüsusi buraxılış olan jurnalda istənilən şəxslər öz yazılar ilə çıxış edə bilər. Belə ki, qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri-ixtisasın sahibləri öz yazılarını jurnalda çap etdirə bilərlər. Eləcə də 500-dən yuxarı bal toplayan məzunlar, əlaçılar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti olan və şeir yazmaq və demək qabiliyyəti olan şagirdlər də jurnala müraciət edə bilərlər.

Onu da qeyd edək ki, jurnal şəhid övladlarına, fiziki əqli cəhətdən zəif olan şagirdlərə, o cümlədən hər iki valideynini itirən şagirdlərə pulsuzdur.

Əziz oxucular! Əgər sizlər də jurnalda məqalə, elan, təbrik və reklam vermək istəyirsinizsə aşağıdakı telefonlarla əlaqə saxlaya bilərsiniz:
Telefon nömrələri:
(070) 077 988 82 83 077 632 22 86 WhatsApp 012 408 91 92

Mail: tehsil_news@mail.ru
Facebook: Tehsil Yenilikleri İnstagram: tehsil_yenilikleri Youtube: Təhsil Yenilikləri

# TƏHSİL YENİLİKLƏRİ

Xüsusi buraxılış Noyabr 2018-ci il (33)









# EUROHOME

***Müasir dam örtükləri***

Hər növ polimer örtükləri, yeni dam örtüklərinin sifarişi

ruukki

**İtalya, Koreya, Çin, Türkiyyə, Ukrayna və bütün dövlətlərin mallarının satışı.**
**Burada hər növ dam örtükləri topdan və pərakəndə satışı olur.**






---

**Ünvan: Xırdalan şossesi, Ekologiya postu ilə üzbəüz**
**EVROHOME mağaza N103**
**Dükanıbn sahibi: Seymur Orucov**
**Tel: (+994 51) 600-02-07**



Təsisçi:
İsa Əkbərov

Baş redaktor:
Samir Əkbərov

Müxbirlər:
Vəfa Babayeva
Gülarə Mirzəyeva

"Təhsil yenilikləri" qəzetinin Xüsusi buraxılış

Ünvan: Azərbaycan Respublikası Bakı şəhəri, Mətbuat prospekti 529-cu məhəllə "Azərbaycan nəşriyyatı" 2-ci mərtəbə

Jurnal Redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib, çap olunmuşdur.

Tiraj - 500

Tel: 070-988-82-83
070-255-78-78